# Meliorasiya və Su Təsərrüfatı ASC sədrinin müavini Qəbələdə vətəndaşlarla görüşüb

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların



qəbulu cədvəlinə uyğun olaraq, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Zakir Quliyev avqustun 9-da Qəbələ rayonunda vətəndaşlarla görüşüb.

Qəbələ Suvarma Sisteləri İdarəsinin binasında keçirilən qəbulda vətəndaşların müraciətləri dinlənilib.

Qəbul zamanı hər bir vətəndaşın müraciətinə diqqətlə yanaşılıb, qaldırılan məsələlərin bir qismi yerində həll olunub. Digər müraciətlər üzrə cəmiyyətin məsul işçilərinə müvafiq tapşırıqlar verilib. Araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə ediblər.

**"Qəbələ"**
**Səhrab Umuyev (foto).**

# Maarifləndirici tədbir




Qəbələ Rayon Mədəniyyət Mərkəzində əhalinin icbari tibbi sığortası ilə əlaqədar maarifləndirici tədbir keçirilmişdir. Tədbiri giriş sözü ilə açan rayon icra hakimiyyəti başçısının müavini Ətayə Osmanova son vaxtlar ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən irimiqyaslı sosial layihələrdən bəhs etmiş, 2020-ci ildən ölkəmizdə tətbiq olunacaq tibbi sığortanın əhəmiyyətindən danışmışdır.



Rayon mərkəzi xəstəxanasının baş həkimi Sabir Bayramov ölkəmizdə, o cümlədən rayonumuzda əhaliyə göstərilən səhiyyə xidmətinin gündən-günə yaxşılaşması və onun maddi texniki bazasının müasir tələblərə cavab verə bilən səviyyədə olması üçün həyata keçirilən tədbirlər barədə məlumat vermiş, tibbi sığortanın həyata keçirilməsi sayəsində bu sahədə işin daha da yaxşılaşacağını bildirmişdir.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin məsul işçisi Pərvin Baxşalıyeva icbari tibbi sığortanın əsas mahiyyəti, icbari tibbi sığortanın əhatəsinə daxil olan xidmətlər barədə, agentliyinin məsul işçisi Elvin Abbasov isə icbari tibbi sığorta haqlarının miqdarı və ödənilməsi qaydaları haqqında məlumat vermişlər.

Sonda tədbir iştirakçılarının çoxsaylı sualları cavablandırılmışdır.

*(Tədbirin gedişi və icbari tibbi sığortası ilə əlaqədar qezetimizin növbəti nömrəsində geniş yazı dərc olunacaqdır.)*

**"Qəbələ"**
**İlkin Vəlizadə (foto).**

# Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci yarısının sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat MƏRUZƏSİ

**(Əvvəli 5-ci səhifədə).**

təmin olunması istiqamətində işlər davam etdirilmişdir. Hesabat dövrü ərzində Mərkəzdə qeydiyyatda olan vətəndaşlardan 335 nəfəri müəssisənin hesabına "Dost iş" MMC-də ictimai işlərə cəlb edilmişdir.

Özünüməşğulluq proqramının növbəti mərhələsində iştirak etmək üçün müraciət etmiş şəxslərdən 4 nəfəri qadın, 3 nəfəri məcburi köçkün, 3 nəfəri müharibə veteranı, 3 nəfəri ünvanlı dövlət sosial yardımı alan və 23 nəfəri əlil olmaqla 46 nəfəri öz biznesinə başla və təkmilləşdir təlimlərinə cəlb olunmuşdur. Müraciət etmiş şəxslərin biznes ideyaları əsasən kənd təsərrüfatı sahəsidir. Özünüməşğulluq proqramı mərhələlərlə il ərzində davam edəcəkdir.

"Ərazi Məşğulluq Proqramı"na uyğun olaraq işə götürənlərlə işsiz və işaxtaran vətəndaşların bilavasitə qarşılıqlı ünsiyyətinin təşkil edilməsi və bununla da işəgötürənlərin qısa vaxt ərzində müasir tələblərə cavab verə bilən ixtisaslı kadr seçiminə imkanlar yaradılması, eyni zamanda işsiz və işaxtaran vətəndaşların layiqli işlə təmin olunmasına komәklik göstərilməsi məqsədilə 21 may 2019-cu il tarixdə aktiv məşğulluq tədbiri olan "Əmək Yarmarkası" keçirilmişdir. Yarmarkada 214 boş iş yeri təqdim edilən 37 müəssisə və təşkilat, 345 nəfər işaxtaran vətəndaş iştirak etmişdir. Yarmarkada iştirak edənlərdən 71 nəfərə münasib işlərə göndəriş verilmişdir ki, onlardan 61 nəfəri işlə təmin olunmuşdur.

Rayonun yerli gəlirləri 2019-cu ilin birinci yarısının yekunlarına görə 6.680,9 min manat proqnoza qarşı 11.245,5 min manat (168,3 faiz) və ya 4.564,6 min manat çox, o cümlədən: "Avtomobil Yolları" Məqsədli Büdcə fonduna aid olan məbləği 16,5 min manat proqnoza qarşı 9,4 min manat (56,8 faiz) və ya 7,1 min manat az yerinə yetirilmişdir. Yerli gəlirlərə aid olan məbləğ 3.541,1 min manat proqnoza qarşı 5.927,5 min manat (167,4 faiz) və ya 2.386,4 min manat çox, yerli xərcləri 3.437,3 min manat proqnoza qarşı 3.321,8 min manat (96,6 faiz) və ya 115,5 min manat az icra olunmuşdur. Gəlirlərin mərkəzləşdirilmiş gəlirlərə aid edilən hissəsi 3.123,2 min manat proqnoza qarşı 5.308,6 min manat (170,0 faiz ) və ya 2.185,4 min manat çox icra olunmuşdur.

Yerli gəlirlər üzrə proqnozlaşdırılmış 10 növ gəlirdən 2 növ vergi üzrə proqnoz tapşırıq kəsirlə yerinə yetirilərək qeyd olunan gəlirlər üzrə büdcəyə 184,5 min manat az vəsait daxil olmuşdur. Digər 8 növ gəlirlər üzrə 2.570,9 min manat çox vəsait daxil olaraq rayonun gəlirləri ümumilikdə 2.386,4 min manat çox yerinə yetirilmişdir.

Yerli gəlirlər üzrə ümumilikdə daxil olmuş 11.245,5 min manat vəsaitdən 5.927,5 min manatı rayonun yerli gəlirlərinə, 9,4 min manatı qanunamüvafiq qaydada "Avtomobol yolları" Məqsədli Büdcə Fonduna, 5.308,6 min manatı isə mərkəzləşdirilmiş gəlirlərə aid edilmişdir.

Rayonun yerli xərcləri 3.437,3 min manat proqnoza qarşı 3.321,8 (96,6faiz) və ya 115,5 min manat az icra olunmuşdur. Əmək haqqı və ona üstəlik xərc maddələrində xərclər 253,5 min manat çox olmuşdur. Həmin maddələr üzrə xərclərin artmasının səbəbi "Minimum aylıq əmək haqqının artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 937 nömrəli Sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 28 fevral tarixli 68 nömrəli Qərarına uyğun olaraq təhsil (məktəbəqədər təhsil) və səhiyyə xərcləri üzrə bu sahələrdə çalışan işçilərin əmək haqlarının 1 mart 2019-cu il tarixdən artırılması olmuşdur.

Digər xərclərin təyinatdan az icra olunmasının səbəbi əmək haqqı və ona üstəlik xərc maddələrində qənaətin yaranması (yerli icra hakimiyyəti orqanları və səhiyyə bölməsi üzrə bəzi ştat vahidlərinin vakant olması ilə bağlı) və bəzi xərclər üzrə faktiki istehsalın olmadığı (elektrik enerjisi, qaz, su və s.) üçün vəsaitin ödənilməməsi olmuşdur.

Yerli büdcənin hesabında ayrı-ayrı xərc maddələri üzrə 1 iyul 2019-cu il tarixə 2.605,7 min manat vəsait qalığı yaranmışdır.

**Hörmətli tədbir iştirakçıları!**

Ötən müddət ərzində xidmət təşkilatları da qarşıya qoyulmuş vəzifələrin öhdəsindən gəlmişlər. Əhalinin elektrik enerjisi, təbii qaz, poçt, rabitə və digər kommunal xidmətləri ilə təminatının daha da yaxşılaşdırılması məqsədi ilə bu sahələr daim diqqət mərkəzində saxlanılmışdır.

Qəbələ Paylayıcı Şəbəkə Sahəsinin xidməti ərazisində 10 kV-luq elektrik verilişi hava xəttinin 9,8 km məsafəsində əsaslı və cari təmir işləri aparılmışdır. 10 kV-luq hava xəttinin Vəndam, Bum, Mıxlıqovaq, Qaradeyin və Zarağan elektrik verilişi hava xətlərində 50 ədəd fiziki köhnəlmiş ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmiş, 8.300 metr məsafədə istismara yararsız, fiziki köhnəlmiş naqillər yenilənmişdir.

20,8 km məsafədə 0,4 kV-luq fiziki köhnəlmiş naqillər eyni güclü naqillərlə əvəz edilmiş, 197 ədəd ağac dayaq dəmir beton və metal dayaqlarla əvəz edilmişdir. Əhali və qeyri əhali sektorunda 119 ədəd yeni, 37 ədəd 3 fazalı sayğac quraşdırılmışdır. 2.090 ədəd qüsurlu sayğac yenisi ilə əvəzlənmişdir.

Təbii qaz istehlakçıları tərəfindən 26212,6 min kub/metr təbii qaz istehlak edilmiş, 3.503,9 min manata qarşı 3.598,9 min manat vəsait toplanaraq ümumi yığım məbləği 102,7 faiz olmuşdur. Həmin göstərici əhali sektoru üzrə 111,5 faiz, büdcə təşkilatları üzrə 89,8 faiz, sənaye, kommersiya və digər təşkilatlar üzrə 99,1 faiz təşkil etmişdir. Əhali abonentlərin ümumi sayı 19.682-ə çatdırılmışdır.

Yarım il ərzində müxtəlif diametrli polad borularla 1.933 metr yeni qaz xətti çəkilmiş, 3 ədəd təzyiq tənzimləyicisi, 2 ədəd 100 mm-lik siyirtmə və 169 abonentə fərdi qaz sayğacı quraşdırılmışdır.

Qəbələ şəhərinin içməli su təchizatının yenidən qurulması işləri davam etdirilmiş, 6 ay ərzində 23.625 pm su xətti və 15.960 pm kanalizasiya xətti çəkilmişdir. Küsnət su mənbəyində 2 ədəd subartezian quyusu qazılmışdır. Zarağan kəndində məcburi köçkünlərin istifadəsində olan nasosxanada 2 ədəd nasos, 7 mərtəbəli yaşayış binasında 1 ədəd, əlillərin yaşayış binasında 1 ədəd hidrofor quraşdırılmış, Aydınqışlaq kəndində poluetilen borularla 460 pm su xətti çəkilmişdir. Tutumu 1.000 kub/metr olan 4 ədəd su anbarının tikintisi başa çatmışdır.

Qəbələ Rayon Mənzil İstismar və Kommunal Müəssisələr Kombinatı 6 ay ərzində şəhər təsərrüfatına 112,0 min manat, ictimai yaşayış binalarına 28,3 min manat, idarə və müəssisələrə 46,9 min manat, kommersiya obyektlərinə 5,3 min manat və fərdi təsərrüfatlara 2,2 min manat cəmi 194,7 min manat dəyərində təmizlik və digər kommunal xidmətləri göstərmişdir.

Qəbələ Rayon 10 №-li Yol İstismarı MMC tərəfindən rayon ərazisində yarım il ərzində 754,7 min manatlıq cari təmir və yolların saxlanması işləri görülmüşdür.

Qəbələ Telekommunikasiya qovşağı 703,0 min manat tarif gəliri proqnozuna qarşı 703,8 min manat gəlir əldə etmiş, proqnoz tapşırığına 100,1 faiz əməl etmişdir. Yarım il ərzində şəhər və kənd əhalisinə 114 ədəd telefon çəkilmiş, 362 ədəd internet qoşulması verilmişdir. Genişzolaqlı internet xidmətindən istifadə edən abunəçilərin sayı 6.780 nəfər təşkil edir. Şəhər və kənd telefon şəbəkəsində 120 ədəd istismara yararsız rabitə dirəyi yeni dəmir dirəklərlə əvəz edilmiş, 150 ədəd dibləri çürümüş rabitə dirəyi beton əsasa bağlanmışdır. Şəhər və kənd telefon şəbəkələrində 13.800 metrlik məsafədə hava rabitə xətləri texniki normaya gətirilmişdir. Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidən tikilməsi ilə əlaqədar yol kənarı hava rabitə xətlərinin texniki normaya gətirilməsi üçün "Aztelekom" MMC tərəfindən işlər hazırda davam etdirilir.

"Azərpoçt" MMC-nin Qəbələ Filialı 181,0 min manata qarşı 163,1 min manatlıq poçt-rabitə xidməti göstərərək proqnoz tapşırığı 17,9 min manat kəsirlə 90,1 faiz yerinə yetirmişdir.

Dövlət Sosial Müdafiə Fondunun Qəbələ rayon şöbəsində 6 ay ərzində 1.000 nəfərə yeni sığorta şəhadətnaməsi verilmişdir ki, bununla da bu günədək sığorta şəhadətnaməsi alan şəxslərin sayı 31.419 nəfərə çatmışdır.

1 iyul 2019-cu il vəziyyətinə şöbə üzrə 11.168 pensiya işi üzrə 11.228 nəfər əmək pensiyaçısı qeydiyyatda olmuşdur. Hesabat dövründə pensiyaçılara ümumilikdə 13524,4 min manat pensiya, 190,6 min manat məcburi dövlət sığorta haqları hesabına müavinətlər ödənilmiş, orta aylıq pensiya məbləği 2.194,8 min manat, bir pensiya işi üzrə isə orta aylıq pensiya məbləği 196 manat 53 qəpik təşkil etmişdir. Xərclənmiş vəsaitin 6.218,7 min manatı subsidiyalar, digər hissəsi isə, yerli daxilolmalar hesabına olmuşdur.

Hazırda şöbədə əmək pensiyalarından əlavə 4.747 ədəd hərəkətdə olan sosial müavinət, 1.462 ədəd təqaüd işi vardır. Həmin müavinətlərin və təqaüdlərin ödənilməsi üçün tələb olunan vəsaitin orta aylıq məbləği 724,6 min manat təşkil edir.

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikası Qanununda edilmiş dəyişiklərə uyğun olaraq, 1 mart 2019-cu il tarixdən 3.147 nəfər əmək pensiyaçısının pensiyasının məbləği 160 manata çatdırılmışdır ki, bu da ümumilikdə pensiyaların ödənilməsi üçün 71,3 min manat əlavə vəsaitə tələbat yaratmışdır. 6 ay ərzində 125 nəfərə avtomatlaşdırılmış qaydada pensiya təyin olunmuşdur. 1 oktyabr 2018-ci ildən etibarən pensiyaların ödənilməsində yeni proqram təminatının tətbiqinə başlanmış, müavinətlərin ödənilməsi üçün yeni proqram təminatına keçid üçün işlərin sistemə daxil edilməsi başa çatdırılmışdır.

Rayonun yaşayış məntəqələrinin sel sularından qorunması, kənd tə-

**(Ardı 7-ci səhifədə).**